# MƏHSUL

Qəzet 1931-ci ildən nəşr olunur

Biləsuvar Rayonunun ictimai-siyasi qəzeti

№ 14 (8268) 31 dekabr 2025-ci il


# MÜASİR AZƏRBAYCANIN LİDERİ: İLHAM ƏLİYEV - MÜSTƏQİL DÖVLƏTÇİLİYİN ZƏMANƏTİ

***Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin ad günü ölkəmizin ictimai-siyasi həyatında əlamətdar tarixlərdən biri kimi qeyd olunur. Bu gün təkcə bir dövlət başçısının doğum günü deyil, eyni zamanda müasir Azərbaycanın inkişaf yolunun, əldə edilən nailiyyətlərin və qazanılan tarixi qələbələrin bir daha xatırlandığı, dəyərləndirildiyi gündür.***



Prezident İlham Əliyevin adı bu gün müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, milli maraqların qətiyyətlə qorunması, ölkənin beynəlxalq arenada nüfuzunun artması ilə birbaşa bağlıdır. Onun rəhbərliyi ilə Azərbaycan son illərdə dinamik inkişaf yolu keçmiş, regionun aparıcı dövlətlərindən birinə çevrilmişdir.

İlham Əliyev 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başladığı gündən etibarən xalqın etimadını doğrultmuş, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirmişdir. Dövlət başçısının həyata keçirdiyi düşünülmüş və uzaqgörən siyasət nəticəsində ölkəmizdə siyasi sabitlik təmin olunmuş, iqtisadiyyat davamlı inkişaf mərhələsinə qədəm qoymuşdur.

Son illər ərzində Azərbaycanın iqtisadi potensialı əhəmiyyətli dərəcədə artmış, iri infrastruktur layihələri həyata keçirilmiş, regionların sosial-iqtisadi inkişafı təmin edilmişdir. Yeni yolların, körpülərin, məktəblərin, xəstəxanaların, sənaye və aqrar parkların istifadəyə verilməsi əhalinin rifah halının yüksəlməsinə mühüm töhfə vermişdir. Prezident İlham Əliyevin daim vurğuladığı kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Prezident İlham Əliyevin fəaliyyətində milli maraqların qorunması və dövlət suverenliyinin təmin olunması əsas prioritetlərdən biri olmuşdur. Bu siyasətin ən parlaq təzahürü 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində əldə edilən möhtəşəm Qələbədir. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, güclü siyasi iradəsi və xalq-ordu birliyi nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş, uzun illər davam edən işğala son qoyulmuşdur. Bu Qələbə təkcə hərbi deyil, həm də tarixi, siyasi və mənəvi zəfər kimi yaddaşlara həkk olunmuşdur.

Müharibədən sonrakı dövrdə azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanması Prezident İlham Əliyevin gələcəyə hesablanmış siyasətinin bariz nümunəsidir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları bu torpaqların qısa müddətdə dirçəldilməsinə xidmət edir. Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması dövlət başçısının ən böyük hədəflərindən biridir.

Prezident İlham Əliyev beynəlxalq münasibətlər sistemində də Azərbaycanı etibarlı tərəfdaş kimi tanıtmışdır. Enerji təhlükəsizliyi sahəsində həyata keçirilən layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi kimi strateji təşəbbüslər ölkəmizin geosiyasi əhəmiyyətini daha da artırmışdır. Azərbaycan bu gün bir çox beynəlxalq layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır.

Dövlət başçısının xüsusi diqqət yetirdiyi sahələrdən biri də gənclər və təhsildir. Gənclərin inkişafı, onların bilikli, vətənpərvər ruhda yetişməsi Prezident İlham Əliyevin siyasətində əsas xətt təşkil edir. Təhsil, idman, mədəniyyət sahələrində qazanılan uğurlar Azərbaycanın gələcəyinə olan inamı daha da möhkəmləndirir.

Prezident İlham Əliyev sadəliyi, prinsipiallığı və xalqa yaxınlığı ilə seçilən liderdir. O, hər zaman Azərbaycan xalqının mənafeyini üstün tutur, verdiyi vədləri real işlərlə təsdiqləyir. Məhz buna görə də dövlət başçısı xalqın böyük etimadını və dəstəyini qazanmışdır.

Bu əlamətdar gündə Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətinə nəzər salarkən aydın görünür ki, onun rəhbərliyi ilə Azərbaycan daha güclü, daha müstəqil və daha nüfuzlu dövlətə çevrilmişdir. Qarşıda duran hədəflər böyükdür və bu hədəflərə doğru inamla irəliləyən Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında parlaq gələcəyə doğru addımlayır.

Prezident İlham Əliyevin ad günü münasibətilə ona möhkəm cansağlığı, uzun ömür, dövlətçilik yolunda yeni uğurlar arzulayırıq. Azərbaycan xalqı öz Lideri ilə fəxr edir və bu birlik ölkəmizin ən böyük güc mənbəyidir.

# BÖYÜK AZƏRBAYCANLI - ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜ QEYD OLUNUB



**Tarix keçmişdir, amma tarixin yetişdirdiyi dahi şəxsiyyətlər xalqın dünəni, bu günü, sabahıdır. O tarixi şəxsiyyətlər ki, qayəsi öz xalqını xalqlar, dövlətini dövlətlər arasında uca etməkdir. Bu şəxsiyyətlər sırasında ən ön cərgədə bugünkü müstəqilliyimizin, başıucalığımızın təməlini qoyan Ümumilli Lider Heydər Əliyev yer alır.**



Heydər Əliyevin adı Azərbaycanın çoxəsrlik tarixinə azərbaycançılığın banisi və dövlətçiliyin yaradıcısı kimi qızıl hərflərlə yazılıb. Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu inkişaf ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl davam etdirilməsinin nəticəsidir. Heydər Əliyev bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünmüş, Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığı ilə inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini konkret olaraq müəyyənləşdirmişdir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olub. 1944-cü ildən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləyib, general-mayor rütbəsinə qədər yüksəlib. Həmin illərdə o, Leninqradda xüsusi ali təhsil alıb, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayıb, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub.



Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 1998-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

2003-cü il oktyabrın 15-də keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edib.



Uzun müddət ABŞ-ın Klivlend klinikasında müalicə olunan Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişib.



Xalqına misilsiz xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi ibrət məktəbidir. Tarixə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamışdır. Müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməzdir. Bu gün ölkəmiz dünya ölkələri sırasında öz layiqli yerini tutmaqdadır və bu, heç şübhəsiz, Ulu Öndərin müdrikliyi, dövlətçilik təcrübəsi, eləcə də onun layiqli davamçısı cənab İlham Əliyevin uzaqgörən siyasəti, qətiyyəti, dəmir iradəsi sayəsində mümkün olmuşdur. Odur ki, biz həmrəy xalq olaraq dahi şəxsiyyətin bizlərə ərmağanı olan müstəqilliyimizi qoruyub saxlamaq üçün Ümummilli Liderimiz Heydər Əliyev ideyalarına və cənab Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətə sadiq qalaraq, Vətənin mənafeyi naminə bütün gücümüzü səfərbər etməliyik.

Bütün ömrünü Vətəninə, xalqına sədaqətlə xidmət edən Ümummilli Liderin xatirəsi hər bir azərbaycanlının qəlbində yaşayacaq və onun "Vətən birdir və hamı



bu vətən uğrunda çalışmalıdır!" fikirləri hər bir Azərbaycan vətəndaşının həyat amalına çevriləcəkdir.

Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini hörmət və ehtiramla yad edirik!

Hər il olduğu kimi bu il də rayonumuzda Azərbaycan xalqının ümummilli lideri **Heydər Əliyevin anım günü ehtiramla yad olunub.**

12 Dekabr Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin anım günüdür. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının kollektivləri və rayon ictimaiyyəti



Heydər Əliyev Parkına gələrək dahi şəxsiyyətin abidəsi önünə tər çiçəklər düzərək, əziz xatirəsini ehtiramla yad ediblər.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsi daim qəlbimizdə yaşayacaqdır!

**Bu tədbirlərin davamı olaraq rayonun Zəfər parkında və Bəydili kəndində Heydər Əliyevin adını daşıyan parkda ağac əkmə aksiyası keçirilib.**

RİH təşkilatçılığı və Mübariz İbrahimov adına Təhsil Kompleksinin dəstəyi keçirilib.Aksiyada Başçı Faiq Qürbətov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, təşkilatların rəhbərləri və Mübariz İbrahimov adına Təhsil Kompleksinin müəllim və şagird kollektivi iştirak edib. Aksiya iştirakçıları parkda müxtəlif növ ağaclar əkərək qullluq göstəriblər.

Bəydili kəndində isə 2024-cü ilin 12 dekabrında ulu öndərin xatirəsinə salınmış Heydər Əliyev Parkında keçirilib.

Rayon İcra Hakimiyyətinin və Bəydili bələdiyyəsinin birgə təşkilatçılığı ilə keçirilən ağacəkmə aksiyasında Başçı Faiq Qürbətov, İcra Hakimiyyətinin kollektivi, YAP Biləsuvar Rayon Təşkilastının sədri Kamil Qurbanlı, rayon təşkilatının üzvləri, rayonun idarə, müəssisə rəhbərləri və Bəydili kənd sakinləri iştirak edib.

Parkın genişləndirilərək əlavə abadlıq işləri aparılmış ərazisində iştirakçılar tərəfindən müxtəlif növ ağac sortları əkilərək suvarılıb.

Həmin gün axşam Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş ehsan süfrəsi təşkil olunub. Mərasimdə Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin rəhbərləri, YAP Biləsuvar Rayon Təşkilatının üzvləri, Qarabağ müharibəsi iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov bildirib ki, müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz həyat məktəbidir. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dövrlər-



də yürütdüyü uzaqgörən siyasət nəticəsində ölkəmizin nüfuzu artıb, hərtərəfli inkişafa nail olunub, müstəqilliyimizin əbədi və dönməzliyi tam təmin edilib. Dahi şəxsiyyətin nüfuzu, onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, nəsillərə nümunə olan həyat və fəaliyyəti, Azərbaycanın müstəqilliyi yolunda atdığı uğurlu addımlar bu gün hər bir vətəndaşımız tərəfindən minnətdarlıqla anılır.

YAP Biləsuvar Rayon Təşkilatının sədri Kamil Qurbanlı, rayon Ağsaqqallar Şurasının sədri Akif Kazımov çıxış edərək Ulu Öndərin həyat və fəaliyyəti, onun Azərbaycanın müstəqilliyi və inkişafı istiqamətində həyata keçirdiyi böyük işlərdən danışıb.

Qeyd olunub ki, Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq və hər zaman dərin ehtiramla yad ediləcəkdir.

Sonda Ulu Öndərin ruhuna dualar oxunub.

**Ramil HƏSƏNZADƏ**

# YENİ İL VƏ DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ - BİRLİK, ÜMİD VƏ GƏLƏCƏYƏ BAXIŞ BAYRAMI



**Hər ilin 31 dekabr tarixi Azərbaycan xalqı üçün xüsusi məna daşıyır. Bu gün təkcə təqvimdə bir ilin başa çatması, yeni ilin başlanğıcı deyil, eyni zamanda dünyanın müxtəlif guşələrində yaşayan milyonlarla azərbaycanlını bir araya gətirən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu əlamətdar tarix milli birliyimizin, ortaq dəyərlərimizin və gələcəyə olan inamımızın rəmzinə çevrilmişdir.**

Yeni İl hər bir insan üçün yeni ümidlər, yeni məqsədlər və yeni başlanğıclar deməkdir. İnsanlar ötən ilin uğur və çətinliklərini geridə qoyaraq, qarşıdan gələn günlərə nikbin baxırlar. Azərbaycan xalqı üçün isə bu nikbinlik həm də milli həmrəylik duyğusu ilə daha da güclənir. Məhz 31 dekabrda qeyd olunan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bu hissləri daha dərindən yaşamağa imkan yaradır.



Bu bayramın əsası 1989-cu ildə Araz çayı boyunca baş verən tarixi hadisələrlə qoyulmuş, 1991-ci ildən etibarən isə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə rəsmi bayram günü kimi



qeyd olunmağa başlanmışdır. O gündən bu günə qədər 31 dekabr dünya azərbaycanlılarının milli kimliyini, dilini, mədəniyyətini və tarixi köklərini unutmadan yaşatmasının simvoluna çevrilmişdir.



Yeni ilin gəlişi isə insanlara yeni ümidlər, arzular və məqsədlər bəxş edir. Bu bayram sülh, rifah və firavanlıq arzularının ifadə olunduğu, ailə dəyərlərinin, dostluq və mehribanlığın ön plana çıxdığı xüsusi bir zamandır. Yeni ilin astanasında ötən ilin uğurlarına nəzər salınır, gələcək üçün daha böyük hədəflər müəyyənləşdirilir.

Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız Vətənlə mənəvi bağlarını qoruyur, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə tanıdılması üçün səylər göstərirlər. Həmrəylik Günü onların bir amal ətrafında birləşdiyini, milli maraqlar naminə bir yumruq kimi sıx ola bildiyini nümayiş etdirir. Bu birlik gücümüzün, müstəqil dövlətimizin dayanıqlığının əsas sütunlarından biridir.

Rayonumuzda geniş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və



Yeni il bayramı münasibətilə tədbir keçirilib.

Bayram Heydər Əliyev Parkında keçirilən tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin rəhbərləri və kollektivləri, şəhid ailələri, qazilərimiz və rayon sakinləri iştirak edib.

Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə rayon sakinlərini təbrik edərək, yeni ildə hər bir sakinimizə möhkəm can sağlığı, uzun ömür, gələcək fəaliyyətlərində yeni-yeni uğurlar və xoşbəxtlik arzulayıb.

Bayram şənliyinə həsr olunmuş tədbir müxtəlif əyləncəli oyunlar və konsert proqramı ilə davam edib.

Bu əlamətdar gün münasibətilə hər bir azərbaycanlıya sülh, rifah, sağlamlıq və uğurlar arzulayırıq. Qoy Yeni İl ölkəmizə yeni nailiyyətlər, xalqımıza daha firavan həyat gətirsin. Qoy dünya azərbaycanlılarının həmrəyliyi daim möhkəm olsun, Azərbaycan adı hər zaman uca tutulsun.

Yeni İl və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü mübarək!

Rayonumuzda geniş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib.

Bayram Heydər Əliyev Parkında keçirilən tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin rəhbərləri və kollektivləri, şəhid ailələri, qazilərimiz və rayon sakinləri iştirak edib.



Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə rayon sakinlərini təbrik edərək, yeni ildə hər bir sakinimizə möhkəm can sağlığı, uzun ömür, gələcək fəaliyyətlərində yeni-yeni uğurlar və xoşbəxtlik arzulayıb.

Bayram şənliyinə həsr olunmuş tədbir müxtəlif əyləncəli oyunlar və konsert proqramı ilə davam edib.

**İlqar DADAŞOV**

## *Reaksiya*

# ƏSASSIZ ŞİKAYƏTLƏR: TƏNQİDMİ, YOXSA İNKİŞAF YOLUNDA MANEƏ?

**Son dövrlər rayonumuzda aparılan abadlıq-quruculuq işləri, sosial layihələr və əhalinin rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər fonunda bəzi şəxslər tərəfindən ünvanlanan əsassız və təsdiqini tapmayan şikayətlər cəmiyyətdə haqlı suallar doğurur. “Məhsul” qəzetində bu mövzuda dərc olunan məqalə oxucular arasında geniş müzakirələrə səbəb olub və redaksiyaya çoxsaylı münasibətlər daxil olub.**

Oxucular qəzetdə qaldırılan məsələnin zamanında və obyektiv olduğunu vurğulayaraq bildirirlər ki, əsassız şikayətlər yalnız ayrı-ayrı qurumların deyil, bütövlükdə rayonun inkişaf tempinə mənfi təsir göstərir. Belə şikayətlər nəticəsində aidiyyəti qurumlar real problemlərdən yayınaraq, süni şəkildə yaradılmış müraciətlərin araşdırılmasına vaxt və resurs sərf etməli olurlar.

Şikayət etmək hər bir vətəndaşın hüququdur, lakin bu hüquq məsuliyyətlə və faktlara əsaslanaraq həyata keçirilməlidir. Şəxsi narazılıqlar, subyektiv münasibətlər və ya kimlərəsə qarşı qərəz əsasında yazılan şikayətlər nə cəmiyyətə, nə də dövlətə fayda verir.

Oxucumuz, **qazi Bəhruz Əliyev:** Rayonumuzda yollar salınır, məktəblər tikilir, sosial obyektlər yenilənir. Belə bir vaxtda kimlərinsə yalnız diqqət cəlb etmək üçün əsassız şikayətlər yazması görülən işlərə kölgə salır.

Xüsusi vurğulanan məqamlardan biri də odur ki, əsassız şikayətlər bəzən qəsdən prosesləri ləngitmək, müəyyən dairələrin maraqlarına xidmət etmək məqsədi daşıyır. Bu cür halların qarşısının alınması üçün ictimai qınaq olmalıdır.

Məqalədə çox yaxşı qeyd olunur ki, ictimai qınaq mütləq olmalıdır. Kimsə bu əməllərlə məşğul olanları qınamırsa səhv edir. Problemlər varsa, onlar mütləq şəkildə konstruktiv və sübuta əsaslanan formada qaldırılmalıdır. Əks halda, bu cür şikayətlər real çətinlikləri olan insanların səsini kölgədə qoyur. Müxtəlif yuxarı instansiyalara rayonumuzdan daxil olan heç bir konkret fakta söykənməyən ərizə və şikayətlətin sayının artmasında Biləsuvar adının da səslənməsi utancvericidir. Müxtəlif təşəbbüslərimiz təkliflərimiz varsa rayon rəhbərliyinə müraciət etmək olar. Yoxsa rayon rəhbərliyi tərəfindən keçirilən abadlıq quruculuq işlərinə mane olmaq məqsədi ilə müxtəlif yollara əl atmaq bəyənilən əməl deyil. Təbiidir ki, əgər istəyiniz, tələbiniz necə istəyirsiniz adlandırın, qanuna müvafiqdirsə mütləq öz həllini yerdə tapacaq.

Rayonumuzun gələcəyi övladlarımızın gələcəyi kimi qiymətləndirilməlidir. Öz övladlarımıza hansı gələcəyi arzulayırıq? Təbii ki, xoşbəxt. İndi gəlin fikirləşək işə mane olmaqla nə edirik? Gələcəyimiz nə olacaq?

“Məhsul” qəzetinin mövzuya həsr etdiyi yazı onu göstərir ki, cəmiyyət əsassız şikayətləri bəyənmir. Əksinə, oxucular görülən işlərin obyektiv qiymətləndirilməsini, tənqidlə yanaşı əməyə hörmət prinsiplərinin qorunmasını vacib sayırlar.

Nəticə olaraq, oxucu olaraq demək istəyirəm ki, sağlam tənqid inkişafın mühərrikidir, əsassız şikayətlər isə bu inkişafın qarşısında maneədir. Rayonumuzun tərəqqisi üçün hər kəsin mövqeyi aydın, məqsədi isə ümumi maraqlara xidmət etsə tərəqqiyə nail olarıq.

**Həkim - Mirhənifə Mirsultanov:** “Məhsul” qəzetində bu gün üçün çox aktual məsələyə toxunulmuşdur. Mən də bir Biləsuvarlı olaraq öz münasibətimi bildirmək istəyirəm.

Cəmiyyətdə ədalət, etimad və hörmət dəyərləri hər zaman yüksək tutulub. Lakin təəssüf ki, son illərdə bu dəyərləri sarsıdan hallar da artır. Sosial şəbəkələrdə, mediada, bəzən isə rəsmi qurumlara göndərilən məktublarda əsassız böhtanlar və yalan ittihamlar insanları haqsız yerə ləkələyir, nüfuzlarını zədələyir.

Küçəyə atılmış siqaret qutusunu götürüb zibil qutusuna atmaq problemin ən qısa yolla həlli olmaqla bir vətəndaşlıq borcumuz deyilmi? Hər xırda məsələni böyüdüb sosial problem kimi səsləndirmək sosial şəbəkələrdə müzakirə mövzusuna çevirmək, ayrı-ayrı adamları qaralamaq, necə deyərlər, milçəkdən dəvə düzəltmək kimə və nəyə lazımdır? Söhbət siqaret qutusunda deyil, əgər hansısa işin xeyrinə təklifimiz varsa bunu rayon rəhbərliyi ilə müzakirə etmək yaxşı olmazmı? Axı hamı üçün işgüzar müzakirəyə qapı açıqdır və biz bunun şahidiyik. Bəzilərinin hansısa işi görmək iqtidarında və niyyətində olmaması bəs deyil, iş görənlərə mane olmaq istəyi adamı utandırır.

Görülən işləri qeyd etsək zəhməti olanlara minnətdarlığımızı bildirsək, xeyirxah əməllər ilə məşğul olanları rəğbətləndirsək öz rayonunu, ölkəsini sevənlərin ürəyincə olar. Görülən işlərə görə onları öz minnətdarlığımızla mükafatlandırsaq yaxşı olar.

**Böhtan** - sadəcə bir söz deyil, vicdanın sükutu, ədalətin yaralanmasıdır. Bu cür hərəkətlər bir insanın illərlə qazandığı etimadı bir anda məhv edə, ailəsini və iş həyatını alt-üst edə bilər.

Cəmiyyət belə hallara biganə qalmamalıdır. Əsassız böhtan yazan, yalan məlumat yayan insanlar ictimai qınağa cəlb olunmalı, onların davranışı ibrət nümunəsi kimi qiymətləndirilməməlidir. Çünki sükutla qarşılanan haqsızlıq sabah daha böyüyüb hamının qapısını döyə bilər.

Əsl vətəndaş məsuliyyəti - kimisə qaralamaq deyil, doğruluğu qorumaqdır. Hər kəs bilməlidir ki, yalanla əldə olunan qələbə müvəqqətidir, amma həqiqət gec-tez üzə çıxır.

**İctimai qınaq** - cəmiyyətin ən güclü tərbiyə vasitəsidir. İnsanlar anlamalıdır ki, böhtanla kiminsə adını ləkələmək nə cəsarət, nə də ağıllılıq göstəricisidir. Bu, sadəcə zəifliyin və mənəvi yoxsulluğun əlamətidir.

Unutmayaq: ədalətli olmaq təkcə qanun qarşısında deyil, vicdan qarşısında da borcdur. Əgər biz həqiqəti qorumağı bacarsaq, onda nə böhtan, nə də yalan cəmiyyətimizdə yer tapa bilməz.

**“MƏHSUL”**

# "44 GÜN - TARİXİ ZƏFƏR" KİTABININ III VƏ IV CİLDLƏRİNİN TƏQDİMATI KEÇİRİLİB




**Bu gün Biləsuvar rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiya-sının ərsəyə gətirdiyi "44 gün - Tarixi zəfər" adlı kitabının III və IV cildinin təqdimatı keçirildi.**




Mərasimdə Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Xatirə Kitabı Redaksiyasının əməkdaşları, Şirvan-Salyan Regional Mədəniy-yət İdarəsinin müdiri Araz Əlizadə, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və ictimaiyyətin nümayəndələri iştirak etdi.

Kitabın təqdimat mərasimdə çıxış edən Biləsuvar rayon İcra Hakimiy-yətinin başçısı Faiq Qürbətov 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən danışdı və bu qələbəni bizlərə yaşadan qəhrəman şəhidlərimizin xatirələrinin daim uca tutulacağını bildirdi. Qeyd olundu ki,onların xatirələri həmişə əziz tutulur, adları əbədiləşdirilir, məzarları xalqın ziyarətgahına, and yerinə çevrilib. İcra başçısı "44 gün - Tarixi zəfər" adlı kitabın ərsəyə gəlməsində zəhməti olan bütün kollektivə öz minnətdarlığını bildirdi.

Sonra Azərbaycan Yazıçılar Birliyi-nin üzvü, Azərbaycan Respublikası Xatirə Kitabı Redaksiyasının baş direktoru Nəzakət Məmmədova çıxış edərək kitabın ərsəyə gəlməsi üçün görülən işlərdən danışıb, şəhidlərimizin qəhrəmanlığının bundan sonra da tədqiqat və təbliğat mövzusu olacağını qeyd edib.



Bildirilib ki, "44 gün - Tarixi zəfər" kitabında Vətən müharibəsində həlak olan qəhrəman şəhidlərimizin barədə ensiklopedik



məlumat verilib və onların xatirəsi əbədiləşdirilib.

Təqdimat mərasimində çıxış edənlər Vətən müharibəsində qazanılan qələbədə canını fəda edən şəhidlərimizin qəhrəmanlıqları haqqında danışaraq, kitabın hazırlanmasında zəhməti olan hər kəsə minnətdarlıq ediblər.

Sonda şəhid ailələrinə "44 gün - Tarixi zəfər" kitabı hədiyyə olunub.

**Həmayil NƏSİROVA**

# "HƏMRƏYLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ DİNİ TOLERANTLIĞIN ƏHƏMİYYƏTİ" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB




**Heydər Əliyev Mərkəzində Rayon İcra Hakimiyyətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan-Salyan Regional bölməsinin təşkilatçılığı ilə "Həmrəyliyin möhkəmləndirilməsində dini tolerantlığın əhəmiyyəti" mövzusunda tədbir keçirilib.**

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Azər Cəfərli, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Nahid Məmmədov, YAP rayon təşkilatının sədri Kamil Qurbanlı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan-Salyan Regional bölməsinin müdiri Sənan Xəlilov, rayon Ağsaqqallar Şurasının sədri Akif Kazımov, QMİ-nin rayon üzrə səlahiyyətli nümayəndəsi Əlifağa Murtuzov, şəhid ailələri, din xadimləri, məktəb müəllimləri və tələbələr iştirak edib.

Tədbir Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsinin yad olunması ilə başlanmış və daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Çıxışlarda qeyd edilmişdir ki, Azərbaycan milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş ölkəmiz bu gün də həmin sahələrdə öz missiyasını uğurla yerinə yetirilməsindən və Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməmiş, hətta yerli əhali ilə qaynayıb-qarışmalarından bəhs olunmuşdur. Natiqlər fərqli dini konfessiya nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olduğunu, bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələrinin formalaşmasından, milli, dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmadığını diqqəti çatdırmışlar.

**Ziya Qurbanov**

# 5 DEKABR - BEYNƏLXALQ KÖNÜLLÜLƏR GÜNÜ QEYD EDİLDİ!



**Beynəlxalq Könüllülər Günü Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə hər il dünyanın bir çox ölkəsində qeyd olunur. Bu əlamətdar gün könüllülük fəaliyyətinin cəmiyyətdə rolunun artırılması, sosial həmrəyliyin gücləndirilməsi və ictimai faydalı təşəbbüslərdə fəal iştirak edən insanların əməyinə dəyər verilməsi məqsədi daşıyır. Beynəlxalq Könüllülər Günü eyni zamanda gənclərin sosial problemlərin həllində daha fəal iştirakına stimul verir və onları xeyirxah təşəbbüslərə təşviq edir.**

Tədbirdə Gənclər evinin direktoru Vəkil Cəfərli gənc könüllüləri əlamətdar gün münasibətilə səmimi qəlbdən təbrik edib, könüllülük anlayışının tarixi, cəmiyyət üçün əhəmiyyəti və gənclərin şəxsi inkişafında oynadığı mühüm roldan bəhs edib. O qeyd edib ki, könüllülük gənclərdə sosial məsuliyyət, vətənpərvərlik və həmrəylik kimi dəyərlərin formalaşmasına mühüm töhfə verir, il ərzində müxtəlif sosial, mədəni və ictimai layihələrdə fəal iştirak edən könüllülərə dəyərli fəaliyyətlərinə görə öz təşəkkürünü bildirib.

Rayon İcra Hakimiyyətinin məsul əməkdaşı Ziya Qurbanlı və Gənclər və İdman sektorunun müdiri Azad Quliyev gəncləri Beynəlxalq Könüllülər Günü münasibətilə təbrik ediblər, könüllü fəaliyyətin cəmiyyətin inkişafında əvəzsiz rol oynadığını vurğulayaraq, gənclərə gələcək fəaliyyətlərində uğurlar və yeni nailiyyətlər arzulayıblar.

Könüllü gənclər könüllülüyün onlar üçün qazandırdığı təcrübələrdən, bu fəaliyyətin şəxsi və peşəkar inkişaflarına verdiyi töhfələrdən danışaraq, onlara yaradılan şəraitə və göstərilən diqqətə görə təşkilatçılara öz minnətdarlıqlarını bildiriblər.

Sonda il ərzində səmərəli fəaliyyəti və fəallığı ilə fərqlənən bir qrup gənc Fəxri Fərmanlarla təltif olunub. Təltifetmə mərasimi gənclər üçün motivasiya mənbəyi, olmaqla yanaşı, könüllülük fəaliyyətinin daha da genişlənməsinə stimul yaradır.

**Zəhra Mürsəlzadə**

# 3 DEKABR - BEYNƏLXALQ ƏLİLLƏR GÜNÜ QEYD OLUNUB







**Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə keçirilən tədbirdə İcra Hakimiyyətinin məsul nümayəndələri, aidiyyəti taşkilat rəhbərləri, şəhid ailələri, torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsində sağlamlığını itirmiş oğullarımız və fiziki məhdudiyyətli insanlar iştirak etmişdir.**

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ziya Qurbanov qeyd edib ki, 1992-ci ildən Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə təsis olunmuş Beynəlxalq Əlillər gününün ölkəmizdə qeyd olunması Ulu Öndər Heydər Əliyevin əlillərə göstərilən yüksək qayğısının nəticəsidir. Beynəlxalq Əlillər gününün qeyd olunmasında əsas məqsəd ictimaiyyətin diqqətini əlillərin problemlərinə yönəltməklə onların ehtiyaclarını, tələblərini yerinə yetirmək, onlara maddi və mənəvi dəstək göstərməkdir. Ölkəmizdə dinamik iqtisadi inkişafla bərabər güclü sosial siyasətin aparılmasını təmin edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən əlilliyi olan şəxslərin sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl və məqsədyönlü addımlar atılır. Bu gün istər torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən igid olullarımızın, istərsə də ümumi əlilliyi olan şəxslərin, əlil uşaqların reabilitasiyası məqsədilə ən müasir tələblərə cavab verən tibbi mərkəzlər yaradılıb, onların təhsili və peşə hazırlığı, əmək hüququnun və məşğulluğunun təmin edilməsi və digər problemlərinin həlli ilə bağlı tədbirlər həyata keçirilir.

Tədbirdə çıxış edənlər respublikamızda əlillərin sosial müdafiəsinin gücləndirilməsi, onların sağlamlığının və cəmiyyətə inteqrasiyasının təmin olunması istiqamətində aparılan dövlət siyasəti barədə bildirdilər.

**Əminə Əhmədzadə**

## RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ KƏNDLƏRDƏ KEÇİRƏCƏYİ SƏYYAR QƏBULLARIN QRAFİKİ

| S/S | Qəbulun keçiriləcəyi inzibati ərazi dairəsinin adı | Qəbulun keçiriləcəyi yer | Qəbul günləri | | | |
|---|---|---|---|---|---|---|
| | | | 07.01.26 | 08.01.26 | 14.01.26 | 21.01.26 |
| 1 | Əliabad kəndi | Əliabad kənd tam orta məktəbi | + | | | |
| 2 | Bağbanlar kəndi | Bağbanlar kənd tam orta məktəbi | | + | | |
| 3 | Çinarlı kəndi | Çinarlı kənd tam orta məktəbi | | | + | |
| 4 | Yuxarı cürəli kəndi | Yuxarı cürəli kənd 1 saylı tam orta məktəbi | | | | + |

Səyyari qəbullarda iştirak etmək istəyən vətəndaşlara İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyə qabaqcadan müraciət etmələri tövsiyə olunur.

## E L A N

**Biləsuvar rayonu Zəhmətabad kənd sakini Qasımov Höccət Əlisahib oğlunun adına DİN DYP tərəfindən verilmiş AA10011 saylı sürücülük vəsiqəsi və Biləsuvar peşə liseyi tərəfindən verilmiş AB030338 saylı diplom itdiyi üçün etibarsız sayılır.**

"MƏHSUL"

Təsisçi və baş redaktor: QƏNBƏRƏLİ BAĞIROV

Ünvan: AZ 1300. Biləsuvar şəhəri, M.İbrahimov küçəsi, 213.

Telefon: 5-16-91. əlavə 108
Mob: (050) 430-55-44
E-mail: mehsul.1931@mail.ru

"Məhsul 1931" MMC; VÖEN: 4102085411
Hh: AZ67AIIB400600E9447967096151

Qəzetdə gedən yazılara müəlliflər cavabdehdirlər.
Sifariş 389
Tiraj: 500

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış və səhifələnmiş, "Son Dakika" mətbəəsində çap olunmuşdur.